**Vergi əməkdaşları arasında şahmat turniri**

*Aprel ayının 14-də Yasamal rayon Şahmat və Dama Mərkəzində vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş ənənəvi şahmat turnirinin açılış mərasimi keçirilmişdir. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təşkil edilmişdir.*

Vergilər nazirinin müşaviri Günay Cəfərli Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən və sayca 7-ci olan bu turnirin Azərbaycanda şahmatın indiki səviyyəyə çatmasında müstəsna xidmətləri olmuş ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunduğunu tədbir iştirakçılarının nəzərinə çatdırmışdır: «Hamıya məlumdur ki, Azərbaycanın bugünkğ uğurları, həm iqtisadi, həm siyasi, həm də idman sahəsindəki nailiyyətləri məhz Heydər Əliyevin səyi və yorulmaz əməyinin nəticəsidir. Respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində ümummilli lider idmanın inkişafına daim böyük qayğı göstərmiş, xüsusilə idmanın qədim növlərindən olan şahmatın ölkəmizdə layiqincə inkişaf etdirilməsi üçün hər bir şəraiti yaratmışdır». G.Cəfərli ötən əsrin 70-ci illərindən etibarən respublikamızda şahmatın inkişafına böyük diqqət göstərildiyini, bunun nəticəsi olaraq ölkənin şəhər və rayonlarında 60-dan çox şahmat məktəbi və klublarının açıldığını, şahmat oyununa marağın kütləvi xarakter aldığını və Azərbaycanda güclü şahmat məktəbinin formalaşdığını bildirmişdir. «Bu gün şahmat idmanı yeni inkişaf dövrünü yaşayır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev digər idman növlərinə olduğu kimi, şahmatın inkişafına da xüsusi diqqət yetirir. Bu məqsədlə 2009-cu ildə cənab Prezident respublikamızda şahmatın inkişaf etdirilməsi haqqında ayrıca sərəncam imzalamışdır. Maddi-texniki bazanın gücləndirilməsinin, idmançılara göstərilən dövlət qayğısının nəticəsidir ki, şahmatçılarımızın beynəlxalq yarışlarda qazandıqları nailiyyətlərin sayı gündən-günə artmaqdadır. Bu ilin yanvar ayından 75 pilot məktəbdə 5 mindən çox ikinci sinif şagirdinə şahmat fənni tədris olunmağa başlanılmışdır».

Müstəqilliyini bərpa edənədək Azərbaycanda beynəlxalq ada sahib cəmi 5 şahmatçı olduğunu bildirən nazirlik rəsmisi, hazırda beynəlxalq qrossmeyster, beynəlxalq usta, FİDE ustası adını daşıyan şahmatçıların sayının onlarla olduğunu qeyd etmişdir. Şahmat üzrə Azərbaycan milli komandasının 2010 və 2011-ci illərdə keçirilmiş Avropa zempionatında ən yüksək yerləri tutduğunu, Beynəlxalq Şahmat Federasiyasının reytinq siyahısında 5-ci yeri tutan beynəlxalq qrossmeysterimiz Teymur Rəcəbovun gələn ilin mart ayında London şəhərində keçiriləcək iddiaçıların turnirində çıxış etmək hüququ qazandığını vurğulamışdır.

G.Cəfərli şahmat turnirində Vergilər Nazirliyinin əksər struktur bölmələrinin əməkdaşlarının iştirak etdiyini, dərin düşünmə və təhliletmə qabiliyyətini artıran şahmat yarışının maraqlı bir rəqabət meydanına çevriləcəyinə və vergi əməkdaşlarının mədəni istirahəti üçün gözəl bir tədbir kimi yaddaşlarda qalacağına əminliyini bildirmiş və hər bir turnir iştirakçısına uğurlar arzulamışdır.

Turnirdə iştirak edən Vergilər Nazirliyinin əməkdaşı Nazim Əhmədov bu tədbir barədə fikirlərini bizimlə bülğşdğ: «Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən hər il  ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş şahmat turnirinin keçirilməsini vergi işçilərinin asudə vaxtlarının və mədəni istirahətinin təşkili baxımından yüksək qiymətləndirirəm. Turnir başlandığı tarixdən artıq 7-ci dəfədir ki, şahmat turnirində iştirak edirəm və hər dəfə turnirdə iştirak edən gənc nəslin nümayəndələrinin sayının artdığını müşahidə edirəm ki, bu da çox sevindirici haldır. Şahmat daha çox zehni əmək tələb edən idman növü olduğu üçün insanlarda dərindən düşünmə qabiliyyətinin inkişaf etməsinə səbəb olur. Mən yarışa qatılan bütün həmkarlarıma uğurlar arzulayıram».

**A.İBRAHİMOVA**